# COP29-dan qlobal gözləntilər çox yüksəkdir

**İndiyədək ölkəmiz bir çox beynəlxalq tədbirə evsahibliyi edib və onların hər birinin öhdəsindən layiqincə gəlib. Bunu Azərbaycanda keçirilən Avropa Oyunları, Avroviziya, İslam Həmrəyliyi Oyunları, Formula-1 kimi tədbirlərin müxtəlif ölkələrdən gəlmiş iştirakçıları məmnunluq və minnətdarlıq hissləri ilə, söylədikləri xoş sözlərlə təsdiq ediblər.**



Dünən - noyabrın 11-də isə ölkəmizin paytaxtında dünyada ən böyük, ən mötəbər tədbirlərdən biri olan Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) start verildi. Bakı şəhəri on minlərlə xarici qonağı qarşıladı. Beynəlxalq tədbirin davam etdiyi iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq.

Diqqətə çatdıraq ki, iqlim dəyişikliyi ilə mübarizədə COP çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. COP BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim sisteminə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış 198 ölkəni əhatə edən sazişdir. Azərbaycan bu böyük tədbirə ötən il yekdil qərarla ev sahibi seçilib.

Bakı Dövlət Universitetinin kafedra müdiri, hüquq üzrə elmlər doktoru, professor Alış Qasımov qeyd edib ki, bu gün ölkəmiz yalnız regionun deyil, eləcə də dünyanın ən güclü dövlətlərindən biridir: "2020-ci ilin 27 sentyabrında başlayan qırx dörd günlük Vətən müharibəsində böyük Zəfər qazanan və 2023-cü ilin sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatlarında ərazi bütövlüyünü, suverenliyini tam bərpa edən Azərbaycan yeni uğurlara imza atır. Ölkəmiz bütün sahələrdə inkişaf edir. Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycan dünyada öz sözünü deməkdədir". Alış Qasımov vurğulayıb ki, ölkəmizə növbəti dəfə və daha genişmiqyaslı beynəlxalq tədbirə - Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etimadının göstərilməsi də məhz son illər Azərbaycanın gündən-günə yüksələn nüfuzunun, nail olduğu uğurların bariz nümunəsi, parlaq təzahürüdür.

COP29-a evsahibliyi ölkəmizin "yaşıl iqtisadiyyat"a keçid strategiyasının məntiqi davamı kimi də dəyərləndirilə bilər. A.Qasımov nəzərə çatdırıb ki, 2024-cü il Azərbaycanda bu missiyaya uyğun olaraq "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. "Azərbaycan "yaşıl enerji" iqtisadiyyatına verdiyi əhəmiyyəti əməli fəaliyyətləri ilə sübut edir. Ölkəmizin 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəfləməsini buna misal göstərə bilərik", - deyə professor bildirib.

Müsahibimiz bir əhəmiyyətli məqamı da vurğuladı ki, ölkəmizdə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) geniş hazırlıq işləri həyata keçirilib. Alış Qasımov tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu, bütün detalların nəzərə alındığını COP-29-a qatılmaq üçün gələn içtirakçıların da məmnuniyyətlə qeyd etdiklərini deyib.

Noyabrın 22-dək davam edəcək COP29-dan gözləntilər barədə danışan professor vurğulayıb ki, beynəlxalq tədbirdə dünyanı təhdid edən təhlükələr, ekoloji fəlakətlər, qlobal problemlər, həmçinin onlardan xilas yolları və bir çox mühüm məsələ müzakirə olunacaq, çıxış yolları aranacaq: "Ümumiyyətlə, COP29-dan qlobal gözləntilər çox yüksəkdir. Əsas gözləntilərə bərpaolunan enerjiyə keçidi sürətləndirmək üçün konkret tədbirlər, öhdəliklər, inkişaf etməkdə olan ölkələr üçün iqlimin maliyyələşdirilməsinin gücləndirilməsi, emissiyaların azaldılması üçün yürüdülən siyasət və digər vacib məsələlər daxildir. Dünyaya mühüm mesajlar COP29 günlərində bizim ölkəmizdən veriləcək".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

COP29
Baku
Azerbaijan

Azərbaycan.- 2024.- 12 noyabr (№ 248).- S.16.